# III BÖLMƏ
# BÖYÜK QAYIDIŞ: İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN REİNTEQRASİYASI

**UOT: 332.336**

***Rəvan Malik oğlu PAŞAZADƏ***
***doktorant***
***revan_pashazade@mail.ru***

***İslam Hacı oğlu İBRAHİMOV***
***i.e.d., professor, Əməkdar kənd təsərrüfatı işçisi***
***Bakı Biznes Universiteti***
***10.30546/4.71.73001.2024.010***

## İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ (İAEƏ) İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNİN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** – İAEƏ-də kiçik və orta sahibkarlığın (KOS) inkişaf etdirilməsi davamlı inkişafın təmin edilməsində əhəmiyyətli rol oynayır. İAEƏ-nin, o cümlədən KOS-ın inkişaf etdirilməsində investisiya resursları mühüm rola malikdir. İnvestisiya resurslarının çatışmazlığı əksər hallarda kapital azlığı prosesinin yaşanması ilə şərtlənir. Bu baxımdan İAEƏ-də iqtisadiyyatın inkişafına investitsiyaların cəlb edilməsi ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyətə malikdir və tədqiqatın məqsədi İAEƏ-yə investisiyaların cəlb edilməsinin stimullaşdırılması istiqamətində zəruri mexanizmlərin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** - Tədqiqat işində təhlil, ümumiləşdirilmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – İAEƏ-də sahibkarlığın inkişaf etdirilməsində investisiya resursları əhəmiyyətli rol oynasa da, lakin bununla belə bir sıra hallarda regionların ixtisaslaşma istiqamətinin daha çox kənd təsərrüfatı məhsulları istehsalı ilə bağlı olması, eləcə də kənd təsərrüfatının spesifik xüsusiyyətləri baxımından daxili və xarici investisiyaların cəlb edilməsində risk amili meydana çıxdığından investisiyaların qoyulması ilə bağlı müəyyən problemlər də yaranır. Bu baxımdan investisiyaların cəlb edilməsi ilə bağlı zəruri stimullaşdırıcı mexanizmlərə ehtiyac vardır.

**Tədqiqatın nəticələri** – İAEƏ-də sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı investisiya qoyuluşlarına mənfi təsir edən amillərin aradan qaldırılması və eləcə də investisiya cəlb edilməsi ilə bağlı stimullaşdırıcı mexanizmlərin işlənməsi sahəsində tövsiyələr və təkliflər işlənib hazırlanmışdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – İAEƏ-yə investisiyaların cəlb edilməsi ilə bağlı zəruri stimullaşdırıcı mexanizmlərdən istifadə edilməsi və o cümlədən vergi güzəştlərinin və azadolmaların verilməsi, kreditləşmə ilə bağlı faiz dərəcələrinin aşağı salınması və digər bu kimi amillərin və vasitələrin rolu müəyyənləşdirilmişdir.

***Açar sözlər: İAEƏ, regionların sosial-iqtisadi inkişafı, İAEƏ-yə investisiyaların cəlb edilməsi, kiçik və orta biznes, investisiyaların stimullaşdırılması***

### *Giriş*

2020-ci ilin 27 sentyabrından etibarən 44 günlük Böyük Vətən müharibəsi nəticəsində Ali Baş Komandan İlham Əliyev cənablarının bilavasitə rəhbərliyi və silahlı qüvvələrimizin şücaəti nəticəsində 30 ilə yaxın bir müddət ərzində Azərbaycanın işğal edilmiş tarixi torpaqları geri qaytarıl-

mışdır. Hazırda həmin ərazilərdə dinc quruculuq işləri və eləcə də ərazilərin minadan təmizlənməsi prosesi uğurla davam etdirilməkdədir. Bununla belə, həmin ərazilərdə infrastruktur sisteminin yaradılmasına istiqamətlənmiş zəruri tədbirlər həyata keçirilir, dövlət tərəfindən infrastrukturun inkişaf etdirilməsi ilə bağlı investisiyalar yönəldilməkdədir. İAEƏ tarixən Azərbaycanın ərazisi olmaqla yanaşı, ixtisaslaşma baxımından kənd təsərrüfatı, sənaye, turizm sahəsində əhəmiyyətli rola malikdir. Fikrimizcə, qloballaşma şəraitində həmin ərazilərdə infrastruktur sisteminin inkişaf etdirilməsi və iqtisadiyyatın müxtəlif sahələrinə investisiyaların qoyuluşunun həyata keçirilməsi ölkənin davamlı inkişafına əlverişli şərait yaratmaqla yanaşı rəqabət qabiliyyətli iqtisadi artımın təmin edilməsində də əhəmiyyətli rol oynaya bilər.

İAEƏ-də KOS-ın inkişaf etdirilməsi iqtisadi inkişafın səmərəliliyinin, daxili iqtisadiyyata hesablanmış əhali məşğulluğunun təmin edilməsinə və gəlirlərin artırılmasına müsbət təsir göstərə bilər. Bu məqsədlə kiçik investisiya qoyuluşlarının həyata keçirilməsi, eləcə də sahibkarlığın bütün formaları üçün zəruri təməl prinsiplərin yaradılması mühüm əhəmiyyətə malikdir. Fikrimizcə, İAEƏ-də investisiya qoyuluşları üçün zəruri fundamental prinsiplər reallaşdırılmalıdır ki, bu prinsiplərə ilk növbədə ərazinin minalardan təmizlənməsi, infrastruktur sisteminin formalaşdırılması, əhalinin qayıdışının təmin edilməsi və iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi ilə bağlı zəruri tədbirlərin gerçəkləşdirilməsi şamil edilə bilər. Tarixi təcrübə sübut edir ki, İAEƏ-nin potensialı nəzərə alınmaqla sahibkarlığın inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlər iri sahibkarlığın inkişaf etdirilməsini və eləcə də KOS-ın yaradılmasını təmin etməlidir. İAEƏ-də iri sahibkarlıq subyektlərinin formalaşdırılması həmin ərazidə istehsal edilən məhsulların xarici bazarlara çıxış imkanlarını genişləndirməsinə və “Qarabağ” brendi altında istehsal edilən məhsullara geniş istehlakçı kütləsinin təmin edilməsinə əlverişli şərait yarada bilər. Fikrimizcə, bütün bunlar ölkədə davamlı rəqabət qabiliyyətli iqtisadi inkişafın ən mühüm parametrləri ola bilər.

**İAEƏ-də iqtisadiyyatın ixtisaslaşma istiqamətlərinin təhlili**. İAEƏ ixtisaslaşma baxımından çoxşaxəli xarakterə malikdir. Bu baxımdan İAEƏ-də iqtisadi inkişafın stimullaşdırılması iqtisadiyyatın şaxələndirilməsi baxımından böyük strateji əhəmiyyətə malikdir. İAEƏ-nin ixtisaslaşma istiqamətləri içərisində ənənəvi ixtisaslaşma sahəsi, o cümlədən kənd təsərrüfatı və emal sənayesinin inkişaf etdirilməsi ilə bağlı kifayət qədər geniş imkanlar mövcud olmuşdur. Bundan əlavə bərpa olunan enerji mənbələrindən istifadə edilməsi, turizmin inkişaf etdirilməsi sahəsində də həmin regionun kifayət qədər geniş potensialları mövcuddur. Qeyd etmək lazımdır ki, respublikamızda İAEƏ-nin iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 07 iyun 2021-ci il tarixli “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Fərmanına müvafiq olaraq İAEƏ-nin ərazisi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu kimi təsnifləşdirilmişdir. [1].

Nəzərə almaq lazımdır ki, İAEƏ-nin iqtisadiyyatının inkişaf etdirilməsi və həmin ərazilərin sosial-iqtisadi baxımdan Azərbaycanın milli iqtisadiyyatına reinteqrasiya prosesinin həyata keçirilməsi üçün ilk növbədə təhlükəsizlik tədbirlərinin genişləndirilməsi və əhalinin qayıdışının təmin edilməsi ilə bağlı məsələlər xüsusilə önəmlidir. Bu baxımdan “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamında qeyd edilir ki, Azərbaycan Respublikasında həyata keçirilən məqsədyönlü və geniş miqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyin təmin olunmasına xidmət edilir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır. [2].

Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair milli prioritetlər” qəbul edilmişdir ki, həmin prioritetlərdə də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 milli prioritet müəyyənləşdirilmişdir. Bu prioritetlərdə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılması, dinamik inkliziv və sosial ədalətə əsaslanan cəmiyyətin yaradılması, rəqabətli insan kapitalı və

müasir innovasiyalar məkanının yaradılması, İAEƏ-yə böyük qayıdış, təmiz ətraf mühit və yaşıl artım ölkəsinin formalaşdırılması öz əksini tapmışdır. [3].

İAEƏ-nin ixtisaslaşma istiqaməti təbii iqlim şəraitinin özünəməxsus xüsusiyyətlərindən doğur. Bu ərazi tarixən ixtisaslaşmış kənd təsərrüfatı ərazisi olmuşdur. Kənd təsərrüfatının xüsusi ilə taxılçılıq, meyvəçilik, tərəvəzçilik, üzümçülük sahələri, eləcə də heyvandarlığın demək olar ki, bütün sahələri ərazidə geniş inkişaf imkanlarına malikdir. Taxılçılıq xüsusilə Ağdam-Füzuli rayonlarında daha yüksək məhsuldarlığa malikdir. Şərqi Zəngəzur iqtisadi rayonunda isə heyvandarlığın inkişafı ilə bağlı böyük perspektivlər mövcuddur. Bundan əlavə, həmin ərazilərdə xüsusilə Şərqi Zəngəzur iqtisadi rayonunda qeyri-ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi, o cümlədən arıçılığın və balçılığın inkişaf etdirilməsi ilə bağlı böyük potensiallar mövcuddur. Bu potensiallar Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam və Füzuli rayonlarının dağlıq hissələrində də mövcuddur. Bütün bunlar İAEƏ-nin ixtisaslaşdırma istiqaməti baxımından rəqabət qabiliyyətli məhsul istehsal etməsinə əlverişli şərait yarada bilər. Fikrimizcə, zəruri infrastruktur sistemlərinin yaradılması və adı çəkilən sahələrə investisiya qoyuluşlarının həyata keçirilməsi nəticəsində yüksək məhsuldarlığa malik təsərrüfat subyektlərinin formalaşdırılması mümkündür ki, bu da nəinki daxili bazarın kənd təsərrüfatı və ərzaq məhsulları ilə doldurulmasına və eləcə də xarici bazarlara rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının ixracına əlverişli şərait yarada bilər. Bütün bunlar kənd təsərrüfatı ilə yanaşı, emal sənayesi müəssisələrinin də inkişaf etdirilməsini təmin etməlidir. Emal sənayesi müəssisələrinin, xüsusi ilə şərabçılıq sənayesinin inkişaf etdirilməsini, ət-süd sənayesi komplekslərinin yaradılmasını özündə ehtiva edir.

İAEƏ-nin iqtisadi potensialı içərisində bərpa olunan enerji mənbələrinin rolu əhəmiyyətli dərəcədə yüksəkdir. Akademik Z.Səmədzadənin fikrincə, enerji amili yüz illərdir insanların mövcudluğunun davam etdirilməsində ən önəmli və təməl qaynaqlar arasında öz yerini qorumuşdur. Günümüzdə də bu amil öz əhəmiyyətini qorumağa davam edərək ölkələrin inkişafında əsas strateji rol oynamaqdadır. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurun isə çox böyük enerji potensialı var. Bu potensialın hərəkətə gətirilməsi həm bütövlükdə Azərbaycanın generasiya gücünü artıraraq hər bir enerji vahidinə daha keyfiyyətli xidmətin göstərilməsinə imkan verəcək və həm də respublikamızın energetika bazasında bu regionların yerini və rolunu təmin edəcək. [4, s.584]

1980-ci illərdə regionda bitkiçilik məhsullarından əsasən taxıl məhsulları və üzüm istehsalı üstünlük təşkil etmişdir. Həmin dövrlərdə Qarabağ və ətraf rayonlar ölkə üzrə taxıl istehsalının 13,9%-nə, üzüm istehsalının isə 25,5%-nə malik idi. Tədarük və logistika infrastrukturları ilə bərabər bölgədə istehsal strukturuna müvafiq aqroemal müəssələrinin yaradılması da mühüm tədbirlərdəndir. Azad olunmuş ərazilərdə südçülüyün, üzümçülüyün və meyvəçiliyin inkişaf perspektivlərini nəzərə alınmaqla məhz bu sahələr üzrə emal müəssisələrinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Həmçinin taxılçılığın inkişafına uyğun olaraq un dəyirmanlarının, heyvandarlığın inkişafı əsasında isə sənaye üsulu ilə yem istehsalı və ilkin dəri xammalı emalı müəssisələrinin qurulması da nəzərə alına bilər [5, s. 31-33].

Müəllifin fikirləri əsasında hesab etmək olar ki, xüsusilə aqrar iqtisadiyyatın modernləşdirilməsi hesabına kənd təsərrüfatında rəqabət qabiliyyətli məhsul istehsalını artırmaq və həmin məhsulların xarici bazarlara çıxışı istiqamətində zəruri tədbirləri gerçəkləşdirmək mümkündür. Təbii ki, bütün bunlar aqrar bazar infrastrukturunun inkişaf etdirilməsi və eləcə də kənd təsərrüatı məhsulları istehsalının keyfiyyətinin yüksəldilməsi hesabına mümkün ola bilər. Fikrimizcə, İAEƏ-də ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarının istehsal imkanları kifayət qədər genişdir və bu imkanlar hesabına ölkədə aqrar məhsulların ixracını artırmaq mümkündür və bütün bunlar eyni zamanda respublikamızda qeyri-neft məhsullarının ixracının genişləndirilməsinə də əlverişli şərait yarada bilər.

**İAEƏ-də investisiyaların cəlb edilməsinin stimullaşdırılmasının xarakterik xüsusiyyətləri**

İAEƏ-nin özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur ki, bu spesifik xüsusiyyətlər investisiyaların cəlb edilməsinə də təsir göstərir. Belə ki,respublikamızın digər ərazilərinə investisiyaların cəlb edilməsi əsas etibarı ilə bazar konyunkturunun spesifik xüsusiyyətləri nəzərə alınmaqla

həyata keçirilir. Məsələn, respublikamızda neft sektoruna investisiyaların qoyuluşu sahənin cəlbediciliyi və beynəlxalq bazar konyunkturunda rolu nəzərə alınmaqla gerçəkləşdirilir. Bu baxımdan iqtisadiyyatın sahə və ərazi strukturları içərisində Bakı şəhərinin rolu yüksəkdir. Daha doğrusu, Bakı şəhəri Xəzər dənizinin sahillərində yerləşdiyindən ölkənin neft sektoruna investisiya qoyuluşu məhz bu şəhərdə reallaşdırılır və bu zaman təhlükəsizlik tədbirlərinə önəm verilir. Lakin bununla belə İAEƏ-nin spesifik xüsusiyyətləri, o cümlədən sərhəd ərazilərdə yerləşməsi hazırkı dövrdə bərpa prosesinin davam etdiyi və minalardan təmizlənmə prosesinin gerçəkləşdiyi şəraitdə həmin əraziyə investisiya qoyulması müəyyən risklər tələb edir. Respublikamızın bu ərazilərinə investisiya qoyuluşlarının həyata keçirilməsi, ərazilərin minalardan təmizlənməsi və infrastrukturun yaradılması prosesi bilavasitə dövlət dəstəyi və daha doğrusu dövlət tərəfindən vəsait qoyuluşu hesabına həyata keçirilir. İqtisadçı alimlər Nazim Müzəffərli və Eldar İsmayılovun 2010-cu ildə dərc etdirdiyi "Azərbaycanın postkonflikt ərazilərinin bərpası: konseptual əsaslar" adlı monoqrafiyasında qeyd edilir ki, konfliktsonrası bərpa üzrə layihələrdə iştirakı müşayiət edən siyasi risklər bir sıra xarici investorlar üçün onların yol verə biləcəyindən daha yüksək ola bilər. Belə postkonflikt regionlara adətən 2 tip xarici investorlar gəlir. Birincilər, qarışıqlıqdan istifadə edib dövlət resursları və donor vəsaitləri hesabına tez və asanlıqla varlanmaq ehtirası ilə hərəkət edən və niyyətləri o qədər də düz olmayanlardır, ikincilər isə hər kəsin tanıyıb qəbul etdiyi beynəlxalq səviyyədə hörmət qazanmış iri şirkətlərdir. Belə şirkətlərin sadəcə adı (brendi) siyasi risklərə və başqa (biznesə nəzərən) risklərə qarşı bir növ "qalxan" rolu oynayır. Azərbaycan təbii ki, yalnız ikincilərlə əməkdaşlıq etməyə can atacaqdır, lakin bu halda göz önünə almaq lazımdır ki, belə iri şirkətlər üçün ancaq irimiqyaslı, milyonlarla dəyəri olan layihələr kommersiya marağı doğura bilər. Sonuncu mülahizə zəminində belə nəticəyə gəlmək mümkündür ki, xarici şirkətlərin iştirak edəcəyi layihələr əsas etibarı ilə aşağıdakı sahələrə aid olacaqdır:

- bəzi həyat təminatlı sistemlərin (yaşayış fondunun, su təchizatının və enerji sisteminin) bərpası;
- nəqliyyat infrastrukturunun (dəmir və avtomobil yollarının, hava limanlarının) dirçəldilməsi;
- istehsal infrastrukturu quruculuğu;
- yeni telekommunikasiya sistemlərinin yaradılması. [6. səh. 228, 229]

Müəlliflərin qeyd etdikləri fikirlərlə bağlı razılaşdığımız və razılaşmadığımız məqamlar da mövcuddur. Razılaşdığımız məqamlar ondan ibarətdir ki, investorların cəlb edilməsi ilə bağlı ikili istiqamətlə tamamilə razıyıq. Belə ki, adətən elə investorlar vardır ki, onlar doğrudan da qarışıqlıqdan istifadə edərək donor təşkilatların və dövlət vəsaitlərinin talanmasına daha çox meyilli olurlar və bu da ölkəmiz üçün təbi ki, strateji maraqlar baxımından əhəmiyyətli deyildir və ölkənin iqtisadi təhlükəsizliyinə mənfi təsir göstərə bilər. İkinci istiqamət isə, daha doğrusu, brend təşkilatların, o cümlədən ölkəmizlə sırf iqtisadi əməkdaşlıq həyata keçirən və ölkəmizin siyasi müstəqilliyini dəstəkləyən ölkələrin qoyduğu investisiyalar daha önəmlidir və bu baxımdan qardaş Türkiyənin və digər ölkələrin investisiyalarına önəm verilməsi xüsusilə mühüm əhəmiyyət kəsb edir. Razılaşmadığımız məqamlar ondan ibarətdir ki, artıq respublikamızda hava nəqliyyatı, dəmiryol nəqliyyatı ilə bağlı infrastrukturların inkişaf etdirilməsi, daha doğrusu istehsal infrastrukturunun inkişaf etdirilməsi istiqamətində bilavasitə dövlət investisiyalarına xüsusi önəm verilmişdir və bu baxımdan Füzuli rayonunda, Zəngilan rayonunda hava limanlarının tikintisini xüsusilə qeyd etmək olar. Adı çəkilən hava limanları İAEƏ-yə müxtəlif tikinti obyektlərinin gerçəkləşdirilməsində və eləcə də əhalinin çatdırılmasında önəmli infrastruktur sistemi kimi xarakterizə oluna bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, İAEƏ-nin ixtisaslaşma istiqamətini kənd təsərrüfatı və emal sənayesi, eləcə də turizm, qeyri-ənənəvi kənd təsərrüfatı sahələri, o cümlədən arıçılıq və balıqçılıq və ən nəhayət mineral suların istehsalı ilə bağlı sahələr təşkil etdiyindən bu sahəyə investisiya qoyuluşlarının da özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur. Əməkdar kənd təsərrüfatı işçisi i.e.d., professor İ.İbrahimovun fikrincə, aqrar sahədə istehsalın iqtisadi səmərəliliyi sahəyə investisiya qoyuluşunun zəruriliyi və spesifik xüsusiyyətləri ilə əlaqədardır. Çox halda investisiyanın maliyyələşdirilməsinə cəlb edilən bank kreditləri də mühüm rol oynayır, lakin sahibkarlıq fəaliyyətinin gəlirləri bank kreditlərinə görə müəyyənləşdirilən faiz dərəcəsindən asılı olaraq

investisiya qoyuluşlarında maraqlı olmurlar. Kənd təsərrüfatı kifayət qədər riskli sahə olduğu üçün investisiyanın həcminin artırılmasına stimul az olur. Aqrar sahənin spesifik xüsusiyyətləri ilə əlaqədar sahəyə investisiya qoyuluşlarına maraq aşağıdır. Buna baxmayaraq hazırda İAEƏ-də investisiya ayrılması daha vacibdir. Regionlarda aqrar sahənin investisiya qoyuluşlarına əsasən aşağıdakı amillər təsir göstərir:

- sahibkarların fəaliyyətinin maliyyə nəticələrinin müxtəlifliyi;
- bankların kreditlərə görə müəyyən etdikləri faiz dərəcələri;
- aqrar istehsalda amortizasiya ayırmalarının vəziyyəti;
- aqrar sahədə sahibkarların istehsal və xidmətlər üzrə layihələrinin maliyyələşdirilməsinin kifayət qədər dəstəklənməməsi;
- aqrar sahədə yeni bağların salınması, meliorasiya və irriqasiya işlərinin həyata keçirilməsi;
- obyektlərin yaradılması və qurulması miqyasının çoxluğu və s. [7, s. 102].

Fikrimizcə, müəllifin investisiya qoyuluşlarına təsir edən amillər kimi sistemləşdirdiyi amillər İAEƏ üçün də keçərlidir. Belə ki, adı çəkilən ərazilərin kənd təsərrüfatı üzrə ixtisaslaşması və emal sənayesinin inkişafı ilə bağlı proseslərin mümkünlüyü sahəyə özünəməxsus spesifik yanaşmanı zəruri edir. Bu spesifik yanaşma ilk növbədə İAEƏ-yə investisiya qoyuluşlarına dövlət dəstəyinin göstərilməsini özündə əks etdirir. Məsələ burasındadır ki, İAEƏ-yə investisiya qoyuluşlarının həyata keçirilməsi zamanı dövlət dəstəyinin göstərilməsi xüsusilə xarici investisiyaların cəlb edilməsi üçün zəruri mexanizmlərin hərəkətə gətirilməsini tələb edir. Bu baxımdan, fikrimizcə, vergi güzəştlərinin verilməsi, vergi tətillərinin həyata keçirilməsi və digər bu kimi amillər vacib cəhətlərdəndir.

İ.e.d., professor E.Quliyev yazır ki, Qarabağın davamlı inkişafı baxımından qarşıya konkret vəzifələr qoyulub. İlk olaraq 2021-ci ilin dövlət büdcəsindən Qarabağın bərpası üçün 2,2 milyard vəsait ayrılmışdır. Qeyd olunan ərazilərin bərpası üçün gələcək dövrlərdə ayrılacaq vəsaitin həcminin artırılması gözləniləndir. Bu proseslərə yerli və xarici investisiyaların cəlb edilməsi bərpa prosesini daha da gücləndirə bilər. Artıq Azərbaycanda dostluq və qardaşlıq şəraitində fəaliyyət göstərən bir sıra ölkələr, o cümlədən Türkiyə, Pakistan, İtaliya, İsrail kimi ölkələrin şirkətləri dirçəliş proqramlarında iştirak etməkdədir. Türkiyənin tikinti şirkətləri Qarabağın dirçəlişi layihələrinə Əhmədbəyli-Füzuli-Şuşa yolunun çəkilişi ilə başlayıb. Fikrimizcə, yaxın perspektivdə bir çox digər ölkələrin şirkətləri də təbii sərvətlərlə zəngin olan Qarabağ və onun ətraf ərazilərinə investisiya qoymaqda maraqlı olacaqlarını bildirəcəklər. [8, s. 91]. Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı, eyni zamanda əlavə etmək istərdik ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının istər beynəlxalq nəqliyyat dəhlizləri baxımından əhəmiyyətini, eləcə də təbii resurslarla zənginliyini, ixtisaslaşma baxımından özünəməxsus üstünlüklərini, rəqabətə davamlı iqtisadi artım perspektivlərini nəzərə alaraq investisiyaların cəlb edilməsi üçün zəruri stimullaşdırılma tədbirlərinin həyata keçirilməsi də vacibdir.

**İAEƏ-yə investisiyaların stimullaşdırılmasının prioritet istiqamətləri**

İAEƏ-yə investisiya qoyuluşlarının həyata keçirilməsi ərazinin iqtisadi inkişafının sürətləndirilməsində və ölkə iqtisadiyyatına inteqrasiyanın gerçəkləşdirilməsində əhəmiyyətli rol oynaya bilər. Ölkənin iqtisadi inkişafının sürətləndirilməsi və həmin ərazidə infrastruktur sistemlərinin inkişafı və eləcə də daxili və xarici bazara sürətli inteqrasiyasının gerçəkləşdirilməsi məhz investisiya qoyuluşlarının həyata keçirilməsindən bilavasitə asılıdır. Bu baxımdan İAEƏ-yə investisiya qoyuluşlarının stimullaşdırılması üçün zəruri tədbirlər həyata keçirilməlidir və bu tədbirlər dövlət tərəfindən gerçəkləşdirilən zəruri tənzimlənmə tədbirləri və eləcə də stimullaşdırılma mexanizmləri ilə müşayiət olunmalıdır. İAEƏ-də investisiyaların stimullaşdırılmasının prioritetlərinə aşağıdakıları şamil etmək olar:

- İAEƏ-yə cəlb edilən daxili və xarici investisiyaları stimullaşdırmaq məqsədi ilə vergi güzəştlərinin tətbiq edilməsi;
- xüsusilə Şərqi Zəngəzur iqtisadi rayonunda mineral su ehtiyatlarının mövcudluğunu nəzərə alaraq bu regionda mineral suların istehsalının qablaşdırılmasının və xarici bazarları çıxışının

təmin edilməsi məqsədi ilə dövlət və özəl tərəfdaşlığının inkişaf etdirilməsi;

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında balıqçılıq, xüsusilə də forel balıqçılığının inkişaf etdirilməsi məqsədilə özəl investisiyaların cəlb edilməsi imkanlarının təmin edilməsi;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatı və emal sənayesinin inkişafında mütərəqqi investisiya layihələrinin dəstəklənməsi, o cümlədən innovativ vasitələr hesabına kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsinə istiqamətlənmiş layihələrin stimullaşdırılması;
- İAEƏ-də bərpa olunan enerji mənbələrindən istifadə edilməsi ilə bağlı innovativ texnologiyaların cəb edilməsini həyata keçirən xarici şirkətlərin fəaliyyətinin stimullaşdırılması;
- xüsusilə Şərqi Zəngəzur iqtisadi rayonunda, o cümlədən Qarabağın mərkəzi sayılan Şuşa şəhərində turizm komplekslərinin yaradılmasına istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi, Şuşa şəhərinin Azərbaycanın turizm paytaxtı elan edilməsi baxımından zəruri investisiya qoyuluşlarının həyata keçirilməsi, bu sahədə azad rəqabətin dəstəklənməsi;
- Şərqi Zəngəzur iqtisadi rayonunun ixtisaslaşma istiqamətini nəzərə almaqla həmin ərazilərdə ətlik maldarlığın inkişafı və yemçilik sahələrinin inkişaf etdirilməsi ilə bağlı zəruri tədbirlərin gerçəkləşdirilməsi və bu sahəyə xarici investisiya qoyuluşlarının stimullaşdırılması;
- İAEƏ-də bazar infrastrukturlarının və eləcə də logistik mərkəzlərin yaradılması ilə bağlı zəruri tədbirlərin gerçəkləşdirilməsi ilə bağlı bu sahəyə xarici investorların cəlb edilməsi;
- İAEƏ-yə turizm cəlbediciliyinin stimullaşdırılması məqsəsi ilə cəlb edilən xarici investorlara ilk on il müddətinə vergidən azad olunma prosedurlarının qoyulması və eləcə də həmin ərazilərdə turizm cəlbediciliyinin stimullaşdırılması məqsədilə cəlbedici qiymətlər sisteminin tətbiq edilməsi;
- İAEƏ-yə turizm cəlbediciliyinin stimullaşdırılması məqsədi ilə xaricdən gələn və eləcə də daxili turistlərin gəlişini stimullaşdırmaq məqsədi ilə aşağı gəliş qiymətlərinin tətbiq edilməsi.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 07 iyun 2021-ci il tarixli Fərmanı
2. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı
3. "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair milli prioritetlər". Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir
4. Z.Ə.Səmədzadə, Qarabağ iqtisadiyyatı 100 ildə, Bakı 2022, 856 səh.
5. F.F.Fikrətzadə. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması, Kənd təsərrüfatının iqtisadiyyatı - 2020, №4 (34) 23-38 səh.,
6. Nazim Müzəffərli, Eldar İsmayılov, Azərbaycanın postkonflikt ərizələrinin bərpası: konseptual əsaslar, Bakı 2010, 270 s.
7. İ.H.İbrahimov. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri, monoqrafiya, Bakı-2022, 240 s.
8. E.A.Quliyev. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu, monoqrafiya, Bakı 2023, 320 səh.

***Раван Малик оглы Пашазаде***
***Докторант***
***Бакинский Университет Бизнеса***
***revan_pashazade@mail.ru***
***Ислам Гаджи оглы Ибрагимов,***
***доктор экономических наук, профессор,***
***Заслуженный работник сельского хозяйства***

# Направления стимулирования привлечения инвестиций на освобожденные территории (ЕАЭС)

***Резюме***

**Цель исследования** – Развитие малого и среднего предпринимательства (МСП) в ИАЭ играет важную роль в обеспечении устойчивого развития. Инвестиционные ресурсы играют важную роль в развитии ЕАЭС, в том числе малого и среднего бизнеса. Дефицит инвестиционных ресурсов зачастую обусловлен тем, что переживается процесс ожесточения капитала. С этой точки зрения реализация необходимых мер по привлечению инвестиций в развитие экономики имеет большое значение в МАГАТЭ, а целью исследования является разработка необходимых механизмов стимулирования привлечения инвестиций в МАЭС.

**Методология исследования** - в исследовательской работе использовались методы обобщения анализа.

**Значимость внедрения исследования:** – Хотя инвестиционные ресурсы играют важную роль в развитии предпринимательства в ЕАЭС, в ряде случаев возникают определенные проблемы, связанные со специализацией регионов, в основном за счет производства сельскохозяйственной продукции, а также фактором риска при привлечении отечественные и иностранные инвестиции с учетом особенностей сельского хозяйства. В связи с этим возникает необходимость в необходимых механизмах стимулирования привлечения инвестиций.

**Результаты исследования:** – Разработаны рекомендации и предложения в области устранения факторов, негативно влияющих на инвестиции в развитие предпринимательства в ЕАЭС, а также разработки стимулирующих механизмов, связанных с привлечением инвестиций.

**Оригинальность и научная новизна исследования** – Определена роль таких факторов и средств, как использование необходимых стимулирующих механизмов привлечения инвестиций в ЕАЭС, а также предоставление налоговых льгот и освобождений, снижение процентных ставок, связанных с кредитованием и других подобных факторов.

***Ключевые слова: ЕАЭС, социально-экономическое развитие регионов, привлечение инвестиций в ЕАЭС, малый и средний бизнес, стимулирование инвестиций***

***Ravan Malik Pashazade***
***PhD student***
***Baku Business University***
***revan_pashazade@mail.ru***
***Islam Haci Ibrahimov,***
***doctor of economic sciences, professor,***
***Honored agricultural worker***

**Directions of stimulatıon of attraction of investments in the liberated territories (EAEU)**

***Summary***

**The purpose of the study** – the development of small and medium-sized enterprises (SMEs) in the IAE plays an important role in ensuring sustainable development. Investment resources play an important role in the development of the EAEU, including SMEs. The shortage of investment resources is often due to the fact that the process of capital bitterness is experienced. From this point of view, the implementation of the necessary measures to attract investments to the development of the economy is of great importance in the IAEU, and the purpose of the study is to develop the necessary mechanisms to stimulate the attraction of investments to the IAEU.

**Methodology of the research -**in the research work, methods of generalization of analysis were used.

**Importance of integration of research -**although investment resources play an important role in the development of entrepreneurship in the EAEU, in a number of cases there are certain problems associated with the specialization of the regions, mainly due to the production of agricultural products, as well as the risk factor in attracting domestic and foreign investments in terms of specific features of Agriculture. In this regard, there is a need for the necessary stimulating mechanisms for attracting investments.

**Results of the research –** recommendations and proposals in the field of elimination of factors negatively affecting investment in the development of entrepreneurship in the EAEU, as well as the development of stimulating mechanisms related to attracting investments have been developed.

**Originality and scientific innovation of the research –** The role of such factors and means as the use of the necessary stimulating mechanisms for attracting investments to the EAEU, as well as the provision of tax benefits and exemptions, lowering interest rates related to lending and other similar factors has been determined.

***Keywords: EAEU, socio-economic development of Regions, attraction of investments to EAEU, small and medium-sized businesses, stimulation of investments***